Astrid Lindqren

# Uzuncorab Pippi cənub sularında

# Uzuncorab Pippi cənub sularında



Astrid Lindqren

First published in 1945 by Rabèn & Sjögren, Sweden.
For more information about Astrid Lindgren, see www.astridlindqren.com.
All foreign rights are handled by Saltkråkan AB, Lidingö, Sweden.
For more information, please contact info@saltkrakan.se

© Text: Astrid Lindgren 1945/Saltkråkan AB
© Illustrations: Ingrid Vang Nyman 1945/Saltkråkan AB

**Astrid Lindgren Pippi Långstrump i Söderhavet**
**Astrid Lindqren Uzuncorab Pippi cənub sularında**
Bakı, "Əli və Nino" Nəşriyyatı, 2022, 128 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq

Tərcümə: Aydın İbrahimov
Korrektor: Aysel Məmmədova
Rəssam: İngrid Vang Nyman
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

"Əli və Nino" Nəşriyyatı
Bakı, AZ 1005, Z.Tağıyev küç., 19
Tel.: (+994 12) 493 04 12
(+994 12) 493 93 68
e-mail: info@alinino.az
www.alinino.az

ISBN 978-9952-38-361-4

© Astrid Lindgren, 1945
© "Əli və Nino" Nəşriyyatı, 2022

# Pippinin «Toyuq» villasına müştəri gəlməsi

Bizim balaca şəhərimiz, bildiyiniz kimi, böyük olmasa da, olduqca səfalı və rahatdır – çaydaşı döşənmiş dar küçələr, bağlı-bağçalı, səliqəli, alçaq evlər və çoxlu güllüklər. Təsadüfən şəhərə düşən hər kəs düşünərdi ki, burada çox sabit və rahat yaşamaq olar. Doğrudur, bizim xüsusi diqqətəlayiq yerlərimiz olmasa da, müsafirləri maraqlandıran iki şey: ölkəşünaslıq muzeyimiz, bir də qədim kurqanımız var. Vəssalam. Amma



şəhərin sakinləri bu diqqətəlayiq yerlərlə olduqca fəxr edirlər və buna görə göstəricilər asıblar ki, hər bir müsafir ən əvvəl gedəcəyi yeri bilsin. Oxun birində iri hərflərlə *«Ölkəşünaslıq muzeyinə»*, o birində *«Kurqana»* sözləri yazılıb.

Lakin şəhərdə üçüncü bir göstərici də var – ox və yazı:

Doğrudur, bu göstərici bu yaxınlarda qoyulub. Məsələ ondadır ki, son zamanlar, demək olar ki, bütün müsafirlər «Toyuq» villasının ünvanını soruşurlar. İndi əslinə baxsan, ölkəşünaslıq muzeyi və kurqandan çox bu villa ilə maraqlanırlar.

Sakit yay günlərindən birində bizim balaca şəhərə bir cənab gəlmişdi. O özü çox böyük şəhərdə yaşadığından bu fikirdə idi ki, bizim kiçik şəhərin bütün sakinlərindən qat-qat üstün və alicənabdır. Bundan başqa, güzgü kimi parıldayan çəkmələri və barmağındakı böyük qızıl üzüklə yaman lovğalanırdı. Təəccüblü deyil ki, o, bəlkə də, özünü dünyada ən ağıllı adam hesab edirdi.

O, maşınını bizim küçələrimizdə sürərkən bərkdən siqnal verirdi ki, hamı eşitsin: gələn odur.

Göstəricilər bu cənabın gözünə sataşanda istehzalı təbəssümlə ağzı əyildi.

– *«Ölkəşünaslıq muzeyinə»*. Yox, yox, artıq dərəcədə minnətdaram! – deyə o, dodaqaltı mızıldadı. –

Məndən uzaq. «*Kurqana*», – deyə o, ikinci göstəricini oxudu. – Bəli də, işə düşdük! – Sonra da üçüncü oxu görüb qışqırdı. – Bu nə səfehlikdir! Gör bir necə də axmaq adı var!

O, təəccübdən özünü itirmişdi. Axı villa ölkəşünaslıq muzeyi və ya kurqan kimi diqqətəlayiq yerlərə tay ola bilməz. O düşündü: «Bu göstəricini başqa səbəbə görə asıblar. Nəhayət, o mümkün olan bircə nəticəyə gəldi; yəqin ki, bu villa satılır və göstərici də ona görə asılıb ki, onu almaq istəyən hara gedəcəyini bilsin. Bu cənab çoxdan böyük şəhərin səs-küyündən uzaq, kiçik bir şəhərdə özünə villa almaq fikrinə düşmüşdü. Əlbəttə, o belə şəhərə həmişəlik köçmək istəmirdi, amma hərdənbir istirahət etmək üçün bura gəlmək fikrində idi. Bir də ki, kiçik şəhərdə onun alicənablığı və nəfis davranışı böyük şəhərdəkindən qat-qat artıq özünü büruzə verir. Odur ki, dərhal gedib bu villaya baxmağı qərara aldı.

Yolu soruşmaq lazım deyildi, cənab, oxun göstərdiyi səmtə getdi. O, şəhərin lap kənarına gəlib çıxdı. Lakin axtardığını tapa bilmədi. O artıq villanı tapmaq ümidini



itirmişdi ki, birdən bağın köhnə sınıq-salxaq küçə qapısında ağ vərəq gördü. Vərəqdə qırmızı karandaşla «Toyuq villası» yazılmışdı.

O, qapıdan içəri boylananda baxımsız bir bağ gördü – bağçada mamır basmış qoca ağaclar, ucları kəsilməmiş qazonlar, çəmənliklər, ləklərdə yox, harada gəldi bitən çoxlu-çoxlu çiçəklər var idi. Bağın o biri başında bir ev var idi. Aman Allah, ev nə ev! Elə bil indicə sökülüb töküləcəkdi. Mötəbər cənab bu evə baxırdı ki, birdən təəccübdən fit çaldı. Evin artırmasında bir at durmuşdu. Bu cənab artırmada at görməyə vərdiş etmədiyindən fit çalmışdı.

Artırmanın pilləkənlərində, günün altında üç uşaq oturmuşdu. Ortalıqda çil-çil sifətli qız görünürdü. Onun parlaq sarışın rəngli hörüklərinin hərəsi bir yana baxırdı. Açıq saç, dama-dama göy paltar, xoşsifət bir qız sağda əyləşmişdi, saçı səliqə ilə daranmış oğlan isə solda özünə yer etmişdi. Sarışın saçlı qızın çiynində meymun oturmuşdu.

Mötəbər cənab get-gedə daha çox təəccüblənirdi. Yəqin ki, o səhv edib və lazımi yerə düşməyib. Çünki ağlı olan kəs başa düşər ki, belə xarabaya müştəri tapılmaz.

– Hey, uşaqlar! – o qışqırdı. – Yəni bu daxma doğrudanmı «Toyuq» villasıdır?

Sarışın qız yerindən sıçradı və qapıya tərəf qaçdı. Onun ardınca oğlan və ikinci qız da tərəddüdlə ayağa qalxdılar.

– Nədir, ağzına su almısan? – deyə cənab soruşdu, çünki sarışın qız onun sualına cavab vermirdi. – Axı bir de görüm ki, bura doğrudan da «Toyuq» villasıdır?

– Qoy bir fikirləşim, – deyə qız mənalı-mənalı başını yellədi. – Söz yox ki, bura ökəşünaslıq muzeyi deyil. Kurqan? Yox, bura kurqan da deyil, hər şey məlumdur. Mən indi bildim ki, – o çığırdı, – bura həqiqətən də «Toyuq» villasıdır!

– Adam kimi cavab ver, – cənab kobudcasına dedi və maşından çıxdı. O, evə və bağçaya baxmaq qərarına gəldi. – Əlbəttə, bu evi uçurub, təzəsini tikmək olar, – o öz-özünə söyləndi.

– Gözəl fikirdir! – sarışın qız qışqırdı. – Nə deyirəm ki, elə bu saatca işə girişək, – o əlavə etdi, qaçaraq evə yanaşıb, ön tərəfindəki taxtalardan birini çıxartdı.

Cənab isə ona heç fikir vermədi. O, ümumiyyətlə, uşaqlarla və onların gic-gic hərəkətləri ilə maraqlanmırdı, bir də ki, indi o, işlə məşğul idi – gərək hər şeyə əməlli-başlı baxasan. Baxımsız olduğuna baxmayaraq, bağ, hər halda, çox gözəl və belə günəşli gündə olduqca cazibədar idi. Əgər

burada təzə villa tikdirsən, qazonlardakı otların başları vurulsa, cığırlar çəkilsə, yaxşı ləklər salınsa və çiçəklər qayda ilə əkilsə, söz yox ki, əsl şəhərkənarı villa yaranar. Və belə bir villada onun kimi mötəbər cənab ləyaqətinə görə dincələ bilər. Beləliklə, o, son qərara – bu evi almaq qərarına gəldi.

Hörmətli cənab bağda var-gəl edə-edə yeni dəyişikliklər düşünürdü. Şübhəsiz ki, bu mamırlanmış ağacları o saat kəsmək lazım idi. Cənab yaşıl çətirini çadır kimi evin üstünə açmış enli gövdəli palıd ağacının yanında dayandı və qətiyyətlə dedi:

– Bu ağacı, əmr edəcəyəm ki, hamısından qabaq kəssinlər.

Dama-dama paltarlı balaca qız qorxmuş halda qışqırdı:

– Vay, Pippi, eşidirsənmi o nə deyir?

Sarışın qız isə bu zaman qurbağa kimi hey atlanırdı.

– Bəli, qət olundu. Mən bax elə bu çürük palıd ağacından başlayıb bağçanı qaydaya salacağam, – deyə cənab öz-özüylə danışmaqda idi.

Dama-dama paltarlı balaca qız yalvarırmış kimi əllərini ona tərəf uzatdı.

– Yox, yox, siz belə etməməlisiniz, – o pıçıldadı. – Axı bu çox... çox yaxşı palıddır. Onun kəlləsinə